AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

ARTİ AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

MÜTDA MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

YARIMFİNAL MƏRHƏLƏSİ

Ad ______________________ Soyad ______________________

## Yuxarı yaş qrupu

## 10 və 11-ci sinif

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI

- İmtahan müddəti — **120 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- 1-7-ci suallar **4**, 8-13-cü suallar **5**, 14-20-ci suallar **6** balla qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Yarımfinal mərhələsinin nəticələrini **11.03.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1. Bəndlərdən birində *baxmaq* sözünün mənası ilə cümlədə işlənməsi arasında *uyğunsuzluq* var:**

| | **Sözün mənası** | **Nümunə** |
|---|---|---|
| A) | Nəzərini bir şeyə dikmək, nəzər yetirmək | Eyib tapır özgəyə, bir baxmayır güzgüyə. (Atalar sözü) |
| B) | Müzakirə etmək, gözdən keçirmək | İclasda hansı məsələlərə baxacaqlar? |
| C) | Qulluq etmək, qayğısına qalmaq | Həkim xəstəyə baxandan sonra diaqnoz qoyaraq lazım olan dərmanları reseptə yazdı. |
| D) | Göz gəzdirmək, axtarmaq, araşdırmaq | Ana evdə hər yerə baxdı, ancaq qələm elə bil iynə olub yoxa çıxmışdı. |
| E) | Müşahidə etmək, seyr etmək | Qaladan düşmən ordusu tərəfə baxırdı. |

**2. Hansı sözdə nöqtələrin yerinə həm qalın, həm də incə sait yazmaqla yeni söz yaratmaq mümkündür?**

A) təl...bat B) hərək...t C) fəl...kət
D) əhv...lat E) nəq...rat

Respublika Fənn Olimpiadası

**3. S. Vurğun hansı əsərlərində müharibəni insanlıq üçün bəla, şər sayır, müharibəyə fəlsəfi şərh verir?**

1. “Dörd söz”
2. “Qoca qəhrəmanın dedikləri”
3. “İnsan”
4. “İstiqbal təranəsi”
5. “Ananın öyüdü”
6. “Partizan Babaş”
7. “Pilot qardaş”

A) 1, 3, 4 B) 3, 4, 5 C) 2, 3, 4, 6
D) 3, 4, 7 E) 2, 4, 5, 6

**4. Ümumi qrammatik mənasını və quruluşunu nəzərə alaraq nöqtələrin yerinə uyğun gələn sözləri tapın.**

| | | |
|---|---|---|
| *dağıntı* | *qiyabi* | *3...........* |
| *vıyıltı* | *2..........* | *təsadüfən* |
| *1.........* | *irili-xırdalı* | *bir az* |

A) 1-ayaqqabı, 2-gözəllik, 3-yuxarı
B) 1-cəld, 2-bənövşəyi, 3-üzüyola
C) 1-dost-tanış, 2- məktəbli, 3-tez
D) 1-vurhavur, 2-ecazkar, 3-tədricən
E) 1-sirdaş, 2-qəhvəyi, 3-axşam

**5. M.Şəhriyar haqqında verilən fikirlərdən doğru olmayanı müəyyən edin.**
A) Bəzi əsərlərində sənətkarların birliyi milli-mənəvi birlik kimi mənalandırılmalıdır.
B) Ən mükəmməl şeirlərindən biri də "Azərbaycan" şeiridir.
C) Bir müddət həyata "qəmdən bir eynək taxaraq" baxmaq məcburiyyətində qalır.
D) Şeirlərinin birində mətbuat orqanının tarixi, mədəni və siyasi əhəmiyyətindən danışmışdır.
E) Bir zamanlar ana dilində yazmış olduğu şeirlərlə parlamış və buna görə dövrünün Hafizi adını qazanmışdır.

**6. Orfoqrafik cəhətdən düzgün yazılmış sözlərin leksik mənalarını qruplaşdırıb doğru cavabı müəyyən edin.**
1. pantamima 2. erudisiya 3. illüminator
4. ponsiyon 5. akkordeon 6. memarial

*a. təyyarənin gövdəsindəki pəncərə*
*b. ev tipli kiçik otel və ya yataqxana*
*c. klavişli musiqi aləti*
*d. müxtəlif sahələrdə dərin elmi və mədəni biliklərə, geniş dünyagörüşünə sahib olmaq, həmçinin bu bilikləri mantiqli tətbiq etmək bacarığı*
*e. xatirələri anmaq üçün abidə*
*f. sözsüz teatr oyunu*

A) 2-d, 4-b, 5-c B) 1-f, 4-b, 6-e
C) 3-a, 5-c, 6-d D) 2-d, 3-a, 5-c
E) 1-b, 3-c, 4-d

**7. Sadə cümlələrdən hansını tabeli mürəkkəb cümləyə çevirmək mümkün *deyil*?**
A) Akifin səni danlamağa haqqı yoxdur.
B) Dəniz çalxalanmağa başlayanda yolu yarı etmişdik.
C) Bütün bunlar təhsilə ciddi yanaşmadığımıza görədir.
D) Biz gözəl bir park salmaq üçün bu yerləri düzləyirik.
E) Onlar "Xəmsə"ni dəfələrlə oxuyublar.

Respublika Fənn Olimpiadası

**8. Tabeli mürəkkəb cümlənin tərkib hissələrinin bağlanma vasitələri ilə bağlı *yanlış* əlaqələndirməni müəyyənləşdirin.**

| | | | |
|---|---|---|---|
| A) | ədat | Hər hansı bir çətinliyə düşdünmü, mənə xəbər ver. | ***doğru*** |
| B) | bağlayıcı söz | O gün ki fəsli yaz olur, gecə-gündüz taraz olur. | ***yanlış*** |
| C) | -sa$^2$ | Gec gəlsən, mənə xəbər verərsən. | ***doğru*** |
| D) | yalnız intonasiya | Hərgah əməkdaşlığımız olmasa idi, işlər bu səviyyəyə yüksəlməzdi. | ***yanlış*** |
| E) | bağlayıcı | Bir halda ki bunu bilirsən, niyə demirsən? | ***doğru*** |

**9. Hansı fikir *səhvdir*?**
A) Bəzi cümlələr var ki, tərkibində heç bir cümlə üzvü iştirak etmir.
B) Söz birləşmələri cümlə üzvü ola da bilər, olmaya da bilər.
C) Mürəkkəb cümlələrin tərkibindəki cümlələrin mübtədası olmaya da bilər.
D) Sintaktik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərin cümlədə işlənmə yeri sərbəstdir.
E) Hər hansı cümlə mürəkkəb cümlənin yalnız bir növünə (tabeli və ya tabesiz) aid ola bilər.

**10. “Kitabi-Dədəd Qorqud” dastanı ilə bağlı verilən bəndlərin neçəsində uyğunluq pozulub?**

1. On altı il əsirlikdə qalıb düşmən qızının köməkliyi ilə əsirlikdən qaçan oğuz igidi: **Beyrək - *doğru***
2. Həyat yoldaşı ilə birlikdə 140 il ömür sürən oğuz igidi: **Dəli Domrul - *doğru***
3. Atası Qanlı Qocanın tapdığı qızla - Selcan xatunla evlənən igid: **Qanturalı - *yanlış***
4. On altı il Düzmürd qalasında əsir olan atası Qazlıq Qocanı xilas edən igid: **Dəli Dondaz - *doğru***
5. Əlincə qalasında əsirlikdə olan qardaşını tanımayıb onunla vuruşan, sonra isə onu əsirlikdən qurtaran igid: **Yeynək - *yanlış***
6. Şahinin ardınca Tumanın qalasına gedib əsir düşən və oğlu tərəfindən əsirlikdən xilas edilən igid: **Qazan xan - *doğru***

A) hamısı doğrudur B) birində
C) ikisində D) üçündə
E) dördündə

**11. Hüseyn Cavidin “Ana” mənzum faciəsindən verilmiş nitqlərin aid olduğu obrazları ardıcıllıqla düzün.**

*1. Getmiş, artıq əsər yoq qəhrəmandan,*
*Mütləq bəni eyliyormuş imtihan!*
*2. Gərçəkdən pək kəskin silahdır, yinə,*
*Ən nihayət, qismət olsun kəndinə.*
*3. Of! Ağrıdan sanki çatlıya başım...*
*4. Gəl, canım, kəndini yorma.*
*5. Boş bir silah!.. Pək tuhaf, şimdi bundan*
*Həm daşıyan qorquda, həm də düşman.*

I. Murad II. Səlim III. Orxan
IV. İsmət V. İzzət

A) 1-IV, 2-II, 3-III, 4-V, 5-I
B) 1-I, 2-II, 3-III, 4-IV, 5-V
C) 1-V, 2-III, 3-IV, 4-I, 5-II
D) 1-II, 2-IV, 3-I, 4-III, 5-V
E) 1-III, 2-V, 3-II, 4-IV, 5-I

Respublika Fənn Olimpiadası

**12. Nümunələrin istifadə edildiyi əsərlərin ardıcıllığını müəyyən edin.**

*1. Ənzari-çəbabında pədidar olan ey zill!*
*Ey zilli – tüluat, oluyorum yenə peyda!*

*2. Mən ki səndən doymamışdım,*
*Quş qonmağa qoymamışdım,*
*Bir almanı soymamışdım,*
*Kim sənə kəc baxdı, bağlar?!*

*3. Fikrim, hissim, xəyalım*
*O qədər yüksəldi ki,*
*Mənə elə gəldi ki,*
*Bizdən əvvəl nə göy,*
*Nə yer, nə torpaq olmuş,*
*Nə ağac dallarında*
*Bir yaşıl yarpaq olmuş!*

*4. Məndə Məcnundan füzun aşiqlik istedadı var!*
*Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.*

*5. Səni kimdir sevən bica, qərənfil?*
*Sənə mən aşiqi-seyda, qərənfil!*

*6. Va həsrəta qoydu fələk binəva səni;*
*Aləmdə dərd çəkməyə gördü rəva səni.*
*Dünya evində olmadı bir yaxşı gün nəsib,*
*Övrətlər içrə eylədi bəxtiqara səni.*

A) “İblis”, “Səsli qız”, “Qızılgül olmayaydı”, “Açıq kitab”, “Şəhidlər”, “Oqtay Eloğlu”
B) “Anamın kitabı”, “Qızılgül olmayaydı”, “Səsli qız”, “Leyli və Məcnun”, “Xurşidbanu Natəvan”, “Müsibəti-Fəxrəddin”
C) “Anamın kitabı”, ”Səsli qız”, “Qızılgül olmayaydı”, “Açıq kitab”, “Xurşidbanu Natəvan”, „Müsibəti-Fəxrəddin“
D) “İblis”, “Səsli qız”, “Qızılgül olmayaydı”, “Açıq kitab”, “Xurşidbanu Natəvan”, “Müsibəti-Fəxrəddin”
E) “Anamın kitabı”, “Səsli qız”, “Qızılgül olmayaydı”, “Leyli və Məcnun”, “Şəhidlər”, “Müsibəti-Fəxrəddin”

**13.** *“Mübarizin düşmənə qarşı olan nifrəti onun mübarizə əzmini daha da artırırdı”* **cümləsindən hansı ifadə(lər) çıxarılsa, cümlənin sintaktik təhlil sxemi *dəyişməz*?**

*1. Mübarizin*    *2. düşmənə qarşı olan*
*3. onun*    *4. mübarizə*

A) yalnız 4    B) 1, 2, 3    C) yalnız 3
D) yalnız 2, 4    E) 2, 3, 4

**14. “Koroğlu” dastanı ilə bağlı doğru olanları müəyyənləşdirin.**

1. Bolu bəy Ərzincan qalasında qoşun böyüyü idi.
2. “Koroğlu, doğrudan da, çox tüğyan edib. Mən indiyə kimi ona fikir vermirdim” – sözləri xotkara məxsusdur.
3. Hasan paşa Həmzəyə bəylik, oğulluq, dünya malı, vəzirlik təklif edir.
4. Keçəl Həmzəyə ünvanlanmış suallardan biri də belədir: “Ay zalım, belə atı da bir qıza verərlərmi?”
5. Xotkar əsərdə çox az görünür, onu yaxından tanımaq olmur.
6. Hasan paşa çox bacarıqlı qoşun böyüyü, dava etməyin min bir fəndini bilən paşadır.

A) 1,4,6    B) 2,3,5    C) 3,4,6
D) 3,5,6    E) 1,2,5

**15. Müqayisə cədvəlinə əsasən *səhv* fikirləri müəyyən edin.**

| ***“İşlətməyin”*** **sözündə vurğu ikinci hecaya düşübsə, ....** | ***“İşlətməyin”*** **sözündə vurğu dördüncü hecaya düşübsə, ....** |
|---|---|
| 1. sözün yazılışı və tələffüzü fərqlənir.<br>2. şəxs (xəbərlik) şəkilçisi qəbul etmişdir. | 3. söz birləşməsinin həm əsas, həm də asılı tərəfi ola bilər.<br>4. ikinci şəxsə aid şəkilçi qəbul etmişdir. |
| 5. qrammatik şəkilçiləri omonimdir.<br>6. sözdə bitişdirici samit işlənmişdir. | |

A) 2, 4, 5    B) 1, 4, 6    C) 1, 3, 5
D) 2, 3, 6    E) 1, 2, 6

Respublika Fənn Olimpiadası

**16. *“Qidalanmaq”* və *“illərlə”* sözlərinin fonetik təhlilinə aid ortaq fikri seçin.**

A) Hecaları samitlə başlayır.
B) Ahəng qanununa tabedir.
C) Bütün samitlərinin qarşılığı var.
D) Üçhecalıdır.
E) Yazılışı və tələffüzü arasında iki fərq var.

**17. Cədvələ əsasən uyğunluğu müəyyən edin.**

| **I. Eyniköklü sözlərdir** | **II. Digərləri ilə eyniköklü söz sayıla da, sayılmaya da bilər.** |
|---|---|
| 1. yaşlamaq | 5. qazıntı |
| 2. yaşanmaq | 6. qazmaq |
| 3. yaşayış | 7. qazılmaq |
| 4. yaşıllıq | 8. qazdırmaq |

A) I-1, 2; II-6, 7, 8    B) I-2, 3; II-6
C) I-3, 4; II-5, 6    D) I-1, 3; II-8
E) I-2, 4; II-5, 7, 8

**18. Feillə bağlı düzgün əlaqələndirməni müəyyənləşdirin.**

| | | | |
|---|---|---|---|
| A) | *öyrənməmiş* | Yerinə görə həm feili sifət, həm də feili bağlama olur. | ***yanlış*** |
| B) | *gəzməli* | Həm sifət, həm də feili sifət kimi işlənə bilir. | ***doğru*** |
| C) | *işlədin* | Həm əmr, həm də xəbər şəklində işlənə bilir. | ***yanlış*** |
| D) | *oxumaqdan* | Cümlədə həm tamamlıq, həm də zərflik ola bilər. | ***doğru*** |
| E) | *dönə-dönə* | Həm zərf, həm də feili bağlama kimi işlənə bilir. | ***yanlış*** |

**19. Eyni adda, lakin fərqli ədəbi növlərdə yazılmış əsərləri müəlliflərə görə uyğunlaşdırın.**

1. “Ana” 2. “Azərbaycan bayrağına”
3. “İntiqam” 4. “Dilənçi”

a) M.Ə. Sabir b) C. Cabbarlı c) R. Rza
d) Ə. Cavad e) Q. İlkin f) H. Cavid

A) 1-b-f ; 2-b-d ; 4-a-b
B) 2-b-d ; 3-a-e ; 4-a-b
C) 1-b-f ; 3-c-e
D) 1-b-f ; 4-a-b
E) 1-b-f ; 2-b-d ; 3-c-e ; 4-a-b

**20. Verilən nümunələrin aid olduğu əsərlər haqda cədvəldəki doğru fikirləri müəyyən edin.**

I. Nə soruşursan dinmir, bircə “hə” bilir, bir də “yox”, bir də qulaqlarınacan keçirdiyi papağından bərk-bərk tutub dayanır.
II. Ağalar və xanımlar akoşkalarda görünən kimi kəndlilər “urra” deyib papaqlarını atdılar göyə və yapışdılar yallı getməyə.

Respublika Fənn Olimpiadası

| **1-ci nümunənin aid olduğu əsərlə bağlı doğru fikirdir.** | **2-ci nümunənin aid olduğu əsərlə bağlı yanlış fikirdir.** | **Hər iki əsər üçün ortaq fikirdir.** |
|---|---|---|
| 1. Əsərdəki ana obrazı övladını düşməndən satın almaq üçün yola çıxır. | 4. Ətrafındakı insanlara mənsəbinə görə fərqli münasibəti, onlarla dialoqu əsas obrazın xarakterinin açılmasında ciddi rol oynayır. | 7. Epik növdə yazılmışdır. |
| 2. Yaddaşını itirən şəxsləri ən yaxın qohumları belə xilas etmək istəmirdilər. | 5. Əsərin sonunda gülünc vəziyyətə düşən obraz var. | 8. “Müstəqil düşüncəsi olmayan, ağalarının fikri ilə oturub-duran şəxslərdən insanlıq ummaq olmaz” fikrini əsərin ideyası kimi düşünmək olar. |
| 3. Əsər birinci şəxsin dilindən təhkiyə olunmuşdur. | 6. Əsər üçüncü şəxsin dilindən təhkiyə olunmuşdur. | 9. Əsərdə mifik elementlərə yer verilmişdir. |

A) 1, 2, 9
B) 2, 4, 5, 6, 7
C) 1, 3, 5, 6, 8
D) 2, 7, 8
E) 1, 4, 6, 9